Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

# I CİLD

Azərbaycan Milli Kitabxanası

BAKI – 2016

## ƏBÜLFƏT VƏLİ



*(1867, Şuşa – 3.12.1918, Göyçay). Aktyor, rejissor, inzibatçı.*

Əbülfət Məhəmmədhəsən oğlu Vəliyev teatr aləmində «Əbülfət Vəli» kimi tanınıb. Həyatı haqqında məlumat çox azdır. Bakıda realni məktəbdə oxuyub. Balaxanı məktəbində müəllim işləyib. Səhnəyə 1880-ci illərin ortalarında qardaşı Nəcəfqulu Vəliyevin səyi ilə gəlib. Həbib bəy Mahmudbəyovun və Sultanməcid Qənizadənin hazırladıqları həvəskar tamaşalarında çıxış edib. Sonralar özünün, eləcə də sənətkar dostu Cahangir Zeynalovun quruluş verdikləri tamaşalarda da oynayıb. İyirminci əsrin əvvəllərində «Müsəlman artistləri cəmiyyəti», «Nicat», «Həmiyyət», «Səfa», «Müdiriyyət» teatr truppalarında aktyorluq və rejissorluq edib.

Hüseyn Ərəblinskinin quruluş verdiyi əksər tamaşalarda məsul müdir Əbülfət Vəli olub. Onun qastrol təşkil etməkdə, truppanı bir qayə ətrafında birləşdirməkdə xüsusi bacarıq və səriştəsi vardı. Azərbaycan aktyorlarının bir dəstəsi Əbülfət Vəlinin rəhbərliyi ilə İrəvan, Tiflis, Batum, Suxumi, İstanbul, Ağməscid (Simferopol), Yalta şəhərlərində qastrolda olub. Bir neçə dəfə «Nicat» cəmiyyətində ədəbiyyat və teatr komissiyasının üzvü seçilib. 1918-ci il rusca «Azərbaycan» qəzetində Kərim bəy Məlikovun yazdığı vida məqaləsindən aydın olur ki, Əbülfət Vəli Göyçay rayonunda acınacaqlı vəziyyətdə dünyasını dəyişib.



Городъ ✦ Баку.

Театръ Г. З. А. Тагіева.

ПРОГРАММА

Театральная Секція О-ва „НИДЖАТЪ"

Мусульманской драматической труппой

въ день „Оруджъ–Байрама"

во вторникъ, 14 октября 1908 года,

Представлено будетъ:

въ 1-й разъ на здѣшней сценѣ

„АБУЛЬ-УЛА"

Соч. Г. Б. и М. Р. въ перед. Г. Шарифова.

Дѣйствующія лица:

| | |
|---|---|
| Абуль Ула Арабскій Эмиръ | г-нъ Шарифовъ |
| Абудіябъ (его дядя) | г-нъ Вели |
| Саяхъ дервишъ | г-нъ Сарабскій |
| Махсудъ (придворный Эмира) | г. Кенгерлинскій |
| Зубейда (невѣста Абуль Ула) | г-жа Մславская |
| Рабіэ (мать Абуль Ула) | г-жа Михайлова |
| 1-й Арабъ | г-нъ Казимовъ |
| 2-й Арабъ | г-нъ Селимбековъ |
| 3-й Арабъ | г-нъ Гусейновъ |
| 4-й Арабъ | г-нъ Альвенди |
| Слуга | г-нъ Рзаевъ |

и другіе.

Гл. режиссеръ Г. АРАБЛИНСКІЙ.

Пом. режиссера Ю. Мелиновъ

Начало ровно въ 8 час. вечера.

***Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin «Əmir Əbül Üla» dramının tamaşa proqramı.*** *Əbülfət Vəli bu tamaşada Əbu Dəyyab rolunu ifa edib. 14 oktyabr 1908-ci il*

*İfa etdiyi əsas rollar:* Xəlil yüzbaşı, Hatəmxan ağa («Hacı Qara» və «Müsyö Jordan və dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə), Fəxrəddin, Dəli Şirin, Şahmar bəy («Müsibəti-Fəxrəddin», «Daldan atılan daş topuğa dəyər» və «Ev tərbiyəsinin bir şəkli», Nəcəf bəy Vəzirov), Şah Təhmas, Cavad xan və Ədhəm xan («Nadir şah Əfşar», Nəriman Nərimanov), Hacı Səməd ağa, İkinci İrakli («Bəxtsiz cavan» və «Ağa Məhəmməd şah Qacar», Əbdürrəhim bəy Haqverdiyev), Gavə («Dəmirçi Gavə», Şəmsəddin Sami), Sidqi bəy («Vətən», Namiq Kamal), Əbu Dəyyab («Əmir Əbül Üla», Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), Qoca Moor («Qaçaqlar», Fridrix Şiller), Ata («Yəhudilər», Yevgeni Çirkov), Ömər ibn As və Həsən («Əl Mənsur», Henrix Heyne), Potap («Əvvəlinci şərabçı», Lev Tolstoy), Cənnətəli («Zorən təbib», Jan Batist Molyer), Dobçinski («Müfəttiş», Nikolay Qoqol), Məşədi Kərim («Pulsuzluq», İvan Turgenev).

Sənət fədaisi Mirzə Fətəli Axundzadənin «Hacı Qara», Nəriman Nərimanovun «Nadir şah Əfşar», Nəcəf bəy Vəzirovun «Müsibəti-Fəxrəddin», «Hacı Qəmbər», Əbdürrəhim bəy Haqverdiyevin «Bəxtsiz cavan», «Dağılan tifaq», Üzeyir bəy Hacıbəylinin «Məşədi İbad» əsərlərinə səhnə quruluşu verib.